**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**NƏSRİN CAVAD QIZI ESMAEİLPUR MİANCİ**

# MÜASİR İRAN AİLƏSİNİN SOSİAL PROBLEMLƏRİ

**İxtisas: 7207.01 – Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi**
**dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2013**

Dissertasiya işi AMEA Fəlsəfə, Sosiologiya və Hüquq institutunun "Müasir fəlsəfi problemlər" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Rza qızı Mirzəzadə**
**Fəlsəfə üzrə elmlər doktoru**

**Rəsmi opponentlər:** **Azər Xoşbəxt oğlu Mustafayev**
**Fəlsəfə üzrə elmlər doktoru, professor**

**Əyyub Sevdim oğlu Kərimov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə «13 » dekabr 2013-ci ildə saat ___ da AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 31, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın kitabxanasında tanış olmaq olar.
Avtoreferat «___» noyabr 2013-ci ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir dünyada baş verən qlobal hadisələr, ictimai-iqtisadi proseslər ailə institutlarının özülündədə ciddi sosial-hüquqi, mənəvi-psixoloji və s. dəyişikliklər yaratmışdır. İranda ailə institutu da müasir dünyanın təsirlərindən kənarda qalmamış, nəticədə burada ailənin inkişaf dinamikasında yeni xüsusiyyətlər ortaya çıxmışdır.

Tarixi inkişaf boyu cəmiyyətdə oynadığı mühüm rola görə ailə problemlərinə xüsusi diqqət yetirilməsi tələb olunur. Ailə hər bir cəmiyyətin sosial strukturunun aparıcı komponenti olub, çoxlu sosial funksiyalar yerinə yetirməklə, həmin cəmiyyətin inkişafında mühüm rol oynayır. Cəmiyyət bir orqanizm kimi necə inkişaf edərsə ,ailə də elə təşəkkül tapmışdır. Müasir ailənin cəmiyyətə, cəmiyyətin ailəyə göstərdiyi təsirlərin nəzərə alınması, bu gün olduqca aktual məsələdir. Ailə həmişə cəmiyyətin əsası və özəyi hesab edilib. Min illər ərzində ailə sosial- mədəni xüsusiyyət, keyfiyyət və dəyərlərin qorunub saxlanılaraq, sonrakı nəsillərə ötürülməsində əsas və davamlı vasitə hesab edilmişdir. Bu qurum tarix boyu müxtəlif formalarda mövcud olmuşdur. Lakin mühüm olan ailənin forması deyil, bəlkə onun sağlam bir cəmiyyətdə davamlı inkişaf etməsidir. Müasir ailə bu istiqamətdə daha fərqli problemlərlə üzləşir. Burada ailə institutu genişlənən yeni mənfi və müsbət steriotiplərin əhatəsində yeni forma və məzmun daşıyıcısına çevrilir. Müşahidələr göstərir ki, müasir İran ailəsinin strukturunda gedən bu dəyişikliklərin başlanğıcı məhz sosial həyat tərzinin özündə gedən yeniləşmə və dəyişmə normaları ilə bağlıdır. Gündəlik həyat fəaliyyətinə çevrilən bu normaların çoxu ailənin mövcudluğu üçün xeyli problemlər yaratmışdır. Bu problemlərin öyrənilməsi mövzunun təhlilini aktuallaşdırır.

XX əsrdə cəmiyyətin demokratikləşməsinin ən vacib meyarı kimi qadınında sosial və mədəni məkanın bütün sahələrində fəal iştirakı hüququnun tanınması dövrü olmuşdur. Qadının həyati və peşə startegiyalarının dəyişməsi, qadın təhsilinin inkişafı, cəmiyyətin qadın potensialına getdikcə artan tələbatı qadının qeyri–məhdud özünüinkişaf imkanlarına malik ictimai subyekt kimi nəzərdən keçirilməsini aktuallaşdırır. Qadın məsələsinin və onun dəyər oriyentasiyalarının prioritetliyi İran cəmiyyətində də qadının yeni statusunun möhkəmlənməsinə yardımçı olmalıdır. Bugünkü şəraitdə qadın problemlərinin İran islam Respublikasının milli inkişaf prosesi

çərçivəsində prioritet istiqamətlərindən olması deyilənləri mövzunun bir daha təsdiqləyir və onun öyrənilməsini zəruri edir.

Müasir cəmiyyətlərin ailə strukturunda bir sıra dəyişikliklər baş vermiş və bu dəyişiliklər nəticə etibarı ilə ailənin öz ənənəvi formasının itirilməsinə səbəb olmuşdur. Belə ki, İranda ailə strukturunda baş verən bu dəyişikliklər tədricən aqrar cəmiyyətdən sənaye cəmiyyətinə keçidl dövrundə tamamlandı. Buna görə də ailədə kişi və qadın münasibətlərində hökmranlıq, tabelik münasibətləri də dəyişikliyə uğradı. Nəticədə ailədə qarşıdurmalar yaranır və onun hətta dağılması təhlükəsı meydana çıxırdı. Məhz bunun üçün istər sənaye və istərsə də ənənəvi cəmiyyətlərdə ailə problemi daim aktual bir məsələ kimi diqqət mərkəzində olmuşdur. Bu noqteyi-nəzərdən də İran ailəsinin sosial problemlərinin fəlsəfi aspektdə öyrənilməsi mühüm aktuallığ kəsb edir. Ailə münasibətlərində dövlətin müdaxiləsinin təsirsiz ötüşməməsinə xüsusi önəm verilməlidir. Qeyd edək ki, İran İslam Respublikasında dövlət tərəfindən qadın ilə kişinin bərabərliyinin elan edilməsi, ailənin insanın və cəmiyyətin inkişafının əsas amili kimi təsbit olunması ailənin mühafizəsi və s. məsələlər İran konstitusiyasının 21-ci maddəsində öz əksini tapmişdır[1].

Tədqiqat işində İranda ailənin sosial problemləri müxtəlif istiqamətdə öyrənilərək və təhlil edilir, mövzunun sosial-fəlsəfi aspektdə təhlili həyata keçirilir. Tədqiqatda müasir İran ailəsinin sosial problemləri əsas tədqiqat obyekti kimi baxılıb, ailənin cəmiyyətdə oynadığı mühüm roluna görə ailə məsələlərinə xüsusi diqqət olunub. Müşahidələr müasir İran ailələrində gedən dəyişikliklər prosesində təzahür edən problemlərin mərkəzində məhz ailələrin sosial göstəricilərinin dayandığını göstərir. Belə ki, müasir dünyada ailələrin qurulması müxtəlif formada təzahür edən sosial fəsadların qarşısının alınması üçün mühüm vasitələrdən biridir. Demək olar ki, cəmiyyətdə yaranan sosial problemlərin ailədən yan keçməsi mümkün deyildir. Öz tarixi inkişafında müxtəlif adət-ənənələri yaşatmış müasir İran ailələrində ailə müasir dövrdə mühüm institut olaraq geniş formada tədqiq edilməsinə bu gün də böyük ehtiyac hiss olunur.

Ailə problemlərinin tədqiqində hüquqi və sosial məsələlərin əlaqəsi inkar edilməzdir. Belə ki, hüquqi müstəvi cəmiyyətin problemlərinin ədalətli həllinin təminatıdır. Buna görə də hüquq həm

---

[1] کاتوزیان ، ناصر، دوره مقدماتی حقوق مدنی خانواده ، تهران : میزان، 1382 .

praktik və həm də məzmun baxımından sosial mahiyyət kəsb edir. Bu araşdırmada məhz ailənin vəzifə və hüquqlarına mədəni, iqtisadi və sosial dəyişikliklərin nə dərəcədə təsir göstərdiyini tədqiq edib üzə çıxarıb .

İnsan cəmiyyətlərində kişi və qadınların müxtəlif sosial rolları olmuşdur. Ailədə bu vəzifələrin bölunməsi əsasən cinslərin təbii bioloji fərqliliyinə əsaslanır. Bu münasibətdə kişilərə aid daha çox sosial sferada çalışaraq öz ailəsinin sosial yaşayışını, onun davamlılığını təmin etməkdirsə, qadınlara düşən vəzifələr sırasına isə ev işləri və uşaqların tərbiyəsi ilə məşğul olmaq kimi mühüm sosial vəzifələr aid edilir. Lakin bu gün, tədricən ailədə kişi və qadınların vəzifələrinin yenidən bölüşdürülməsi günümüzün aktual məsələlərindən birinə çevrilmiş və elmdə də yeni tədqiqat obyekti olmuşdur. Bu vəzifələrin yenidən bölüşdürülməsinə qadınların, demək olar ki, bütün sosial sahələrdə çalışmaları, təhsil alma azadlığı, cəmiyyətdə öz iradələrini sərbəst şəkildə ifadə etməsi, kişilərin isə məişətdə qadınlara kömək etməsini göstərmək olar. Bu kimi problemlər də mövzuda öyrənilmişdir.

Bütun bu proseslər yeni sosial problemlərin də üzə çıxmasına səbəb olur ki, onların da tədqiqi bu gün daha aktual məsələlərdəndir Qeyd etdiyimiz kimi, İranda ailənin müasir dəyişikliklərə adaptasiyasını və ya geri qalmasının səbəblərini mədəni, sosial və iqtisadi dəyişikliklərdə axtarmaq lazımdır. Digər tərəfdən, İranda hüquq sosiologiyası formalaşmasının öz ilkin mərhələlərini yaşamaqdadır. O, cümlədən bu sahədə İranda araşdırma aparan hüquqşünas və sosioloqların bir-biri ilə sıx əməkdaşlıq etməməsi və ya müştərək araşdırma aparmaması problemə kompleks yanaşmanı daha aktual edir. Bu tədqiqatın aktuallığı məhz bu problemin müasirləşmə müstəvisində sosial-fəlsəfi, tarixi, hüquqi və sosioloji aspektdə öyrənilməsidir.

**Tədqiqatın işlənmə dərəcəsi.** Fəlsəfi tədqiqatların obyekti kimi ailə ilə bağlı məsələlərə müxtəlif dövrlərdə maraq olmuşdur. Bu problem daim filosof, sosioloq, psixoloq və digər alimlərin diqqətini çəkmişdir. İran ailəsinin sosial problemləri barədə xeyli sayda məqalə və kitab çap olunsa da, məsələ xüsusi bir elmi tədqiqat mövzusu kimi geniş öyrənilməmişdir. Qeyd edək ki, müasir İranda bu məsələ daha da aktuallaşmışdır. Azərbaycanda qadın məsələsinin təhlilində və onun araşdırılmasında, tanınmış tədqiqatçılardan Z.Quluzadənin İ.Məmmədzadənin, Ə.Abasovun, R.Mirzəzadənin, H.Hüseynovanın,

R.İbrahimbəyovanın, L.Mövsümovanın, Ə.Əlizadənin, N.Salmanovanın[2] və b. əsələri mühüm rol oynamışdır.

Bu müəlliflərin konseptual əhəmiyyət daşıyan əsərlərində geniş aspektli məsələlər işıqlandırılmışdır. Buraya gender tədqiqatlarının metodologiyası və praktikası, Azərbaycanda gender münasibətləri və qadın hərəkatinin xüsusiyyətləri və qadın məsələsinin tarixi-fəlsəfi izahı, bəşər mədəniyyətinin inkişafına qadının verdiyi töhfə, münaqişələrin qarşısının alınmasında qadının rolunun araşdırılması daxildir. Qeyd etmək lazımdır ki, son illərdə tədqiqatçıların diqqəti genderin sosiomədəni aspektlərinin tədqiqi, yeni dünyagörüşünün təşəkkülü prosesində onun rolu, habelə gender və mədəniyyət, gender və siyasət, gender və təhsil, gender və iqtisadiyyat kimi aktual problem üzərində cəmləşmişdir . Xaricidə nəşr edilmiş fundamental mənbələr sırasında feminizmin tarixi və nəzəriyyəsi, o cümlədən, qadının cəmiyyətdə və ailədə yeri və rolunun öyrənilməsinə həsr olunmuş Q.Əminin "yeni qadın", A. Mişelin "Evlənmək və ailə sosiolojiyası", S.de Bolvuanın "İkinci cins" əsərləri, həmçinin, B. Fridanın, B. Polknın, E. Dürkheymin, H. Meginin, F. Pittmenin, E. Giddensin, J. Martinin əsərləri xüsusilə diqqəti cəlb edir[3].

---

[2]Abasov Ə. Mirzəzadə R. Genderə giriş. Bakı. 2004. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı.1986. Xəlilov N. Ailə tərbiyəsinin bəzi məsələləri. Bakı. Elm.1985. İbrahimbəyova R. Qadın və kişinin bərabərliyi. Gender axını. Gender tədqiqatları. Bakı. El-Alianse. 2000. Quluzadə Z. Azərbaycanda gender maarifinə dair. Genderşünaslıq. *No*4. 2000. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktualığı haqqında. Bakı .Təknur. 2009. Məmmədov R. Müasir dövrdə flsəfənin yeni istiqamətləri və genderin sosial-fəlsəfi problemləri. Bakı. 2002. Mirzəyev İ. Ailənin praktik psixologiyası. Bakı. Adiolğlu. 2005. Mirzəzadə R. Qadın hüqugları. Bakı. İnam. 1999. Mövsümova L. Azərbaycanda qadını uzaq keçmişdən indiyədək. Bakı. «UlU» tədqiqatları. Bakı. Adiloğlu. 2002. Novruzlu İ.M.İdarəetmənin Sosial- psixoloji əsasları. Bakı. "Kitab aləmi". 2005.

[3] Berger peter L.Sacred canopy: Element of siciological Theory of religion. Newyork:Doubleday. 1995. Bilton T and others. İntrodutory sociology.Newyork.palgrave Macmilan press. 2002.Collins R. Conflict Sociology : Toward an Explanatory Sceince, Newyork Academic 1973 . Dewey J.Experience and education Macmilan. Newyork2000. Freud. General İntroduction to psychoanaliyis.Gorden Citypublco.Newyork.1999. Green stein Theodore N 1996. Husbands Participation in Domestic Labour: interactive effects of Wives and Husbands gender ideologies, Journal of marriage and the Family. Vol . 58. Good W.J.A.Sociologıcal Perepect and on marital Dissolutionin sociologyof the family Ed .By.M .Anderson Balitiore Penguim. Books İlt .1985..Maret E and B finaly.The distribution of household labor among women in dual earner families .Journal of marigge and family .1984. Martin J,and Roberts G. Women and employment.Alife time perspective .london.1991. Polk B. Male power and the women Movement .Jornal of applied behavorial science. 1974. Pittman JoE.F. and Blanchard. David . 1993, the Ffforts of Work History and Timing Of Marriage on the Division of Household Labour , Journal of Marriage and The family .Vol58. Rich A.of women born.Motherhood as Experience and institution .Newyork.W.W.Norton and company .1986.Rosaldo M.lamphere L. Women culture and society .Stanford .1974. Violence Against women.Statistical Review.Word

Müasir İran alimi, N.Həbibullah 2004-ci ildə çıxan “Ailədə rolların bölunməsində effektiv üsullar haqqında” kitabında ailədə rolların bölgüsündə ailənin sosial statusu, ailənin sosial-iqtisadi mövqeyi, qadınların fəaliyyət səviyyəsi, qadınların təhsil səviyyəsi, gəlir və kişilərin peşə isitqaməti kimi illərin təsiri altında formalaşmasını bildirmişdir[4]. M.Şəhmirzayinin “Kişilərin evdə yardımcı olmasında qadınların ictimai fəaliyyətlərinin təsiri” adlı əsərində ev işlərində kişilərin əməkdaşlıq səviyyəsi ilə ənənəvi inanclara əsaslanma, qohumlarla gediş- gəliş səviyyəsi, aylıq əmək haqqının miqdarı, işə başlama zamanı qadının yaş, təhsil səviyyəsi, ər və arvadın sosial mövqeyi və qadınların işləmə prinsipi arasında olan əlaqəni tədqiq etmişdir[5]. B. Saruxani 2007-ci ildə "İranda ictimai fəaliyyətlərinin effektivliyi” adlı elmi tədqiqat aparıb. Bu tədqiqat Tehranın müxtəlif yerlərində 1020 ailəni əhatə etmişdir[6].

Ş.Ezazi 1980-ci ildə yazdığı "İranda qadınların statusu və onların ictimai fəaliyyətlərinin sosial effekti" adlı elmi işində belə nəticəyə gəlmişdir ki, işləyən müəllim qadınlar həmin işlərini sevdiklərinə və həm də daha yaxşı yaşamaq xatirinə, daha çox işlədiklərinə görə onların sosial məlumatları da artmış olur[7].

Z. Qasımzadə "Qadınlarla pis davranma" adlı məqaləsində qadınlarla pis davranmanın səbəblərini sosial səbəblər kimi götürmüş və hər bir cəmiyyətin davamlı inkişafı üçün iki cinsin münasbiətlərinin harmonik inkişafının şərt olmasını qeyd etmişdir. Hər bir cəmiyyətdə qadın və kişi münasibətləri və rolların bölgüsü qadınlarla davranışın mühüm amillərindən hesab edilir.

H. Zəncanizadə və digərlərinin " Qadınların siyasi fəaliyyəti və ona təsir edən sosial amillər" kimi mövzu ilə bağlı fikir və düşüncələr

---

Bank.1997.willys Alle Rechte vorbehalten, Evlilik ve ilişkiler. Kartrichyayinları.london .2003 M. Good, Participatory design of a portable torque-feedback Device, in Proceedings of the ACM CHI ‘92Conference Monterey, CA, May 3-7, 1992. J. Whiteside, J. Bennett, K. Holtzblatt, Usability engineering: our experience and evolution, in: M. Helander (Ed.), Handbook of Human-Computer Interaction, Elsevier, Amsterdam, 1988. B.A. Nardi, Studying Context, in: B. Nardi (Ed.), Context and Consciousness, MIT Press, Cambridge, MA, 1996. L.S. Vygotsky, Minds in Society, Harvard University Press, Cambridge, MA, 1978.

4 حبیب الله ، ندا ، بررسی عوامل موثر برتقسیم نقشها ی خانوادگی، پایان نامه کارشناسی ارشد ، دا نشگاه علامه طباطبا یی ، 1382

5 شاه میر زایی ، معصومه، تا ثیر اشتغال زنان بر میزان همکاری مردان در کارهای خانه ، پا یان نامه کار شناسی ارشد مطالعات فرهنگی دانشگاه علامه طباطبایی ، 1380 .

6 سا روخا نی ، با قر ، مقد مه ای بر جامعه شنا سی خانواده ، تهران : سروش ، 1375 .

7 اعزازی، شهلا، جامعه شناسی خانواده ، تهران : انتشارات رو شنگران و مطالعات زنان، 1376. اعزازی ،شهلا ،خشونت خانوادگی "زنان کتک خورده " ، تهران: نشر سالی،.1380.

təhlil edilmişdir. Beləliklə, müasir dövrdə, İranda ailə məsələlərinin öyrənilməsi ilə bağlı geniş tədqiqat işləri aparılır[8]. S. Ziyayi və P. Pərçəmi "Həyat yoldaşını incitməyə psixoloji və mədəni amillərin təsiri" adlı əsərdə fərdlər arası münasibətləri həyat yoldaşını incitməyə təsirini qeyd etmişlər. Onların gəldiyi qənaətə görə həyat yoldaşlarını incidən kişilərin əksəriyyəti zorakılığın adi olduğu ailələrdə böyümüşlər. Həmin kişilər ataları və ya böyük qardaşları tərəfindən ana və bacılarna qarşı pis rəftarın şahidi olmuşlar.

Bu cür kişilərin adətən psixi cəhətdən problemləri olmasa da şəxsiyyət baxımından qeyri-sabit və dağınıq insanlar kimi xarakterizə edilirlər[9].

**Tədqiqatın mənbələri.** Disssertasiyada nəzəri mənbə kimi, Azərbaycan və İran alimlərinin ailə ilə bağlı elmi əsərlərindən və məqalələrindən istifadə edilmişdir. İrandan başqa digər ölkə alimlərinin əsərlərində və məqalələrində bəhs edilən fikirlər də tədqiqatın əsas mənbələrindəndir. Azərbaycanda, İranda və digər ölkələrdə çap olunan kitablar, jurnallar, həmçinin internet saytları da bu dissertasiya üçün müəyyən nəzəri mənbə rolunu oynayıb.

**Tədqiqatın obyektini** müasir İran ailəsi və onun sosial problemləri təşkil edir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi İran ailələrində sosial problemlər və onların həlli üçün vacib məsələlərin sosial-fəlsəfi mahiyyətinin araşdırılmasıdır. Bu məqsəd aşağıdakı vəzifələrin qoyulması və həll edilməsi ilə həyata keçirilir:

-İranda ailə münasibətləri: sosial–mədəni və tarixi baxışlar, eyni zamanda dünyanın tanınmış alimlərinin ailə məsələlərinə sosial-fəlsəfi münasibətlərinin öyrənilməsi;

-ailə problemlərinin mədəni və mənəvi abidələrdə təzahürlərinin aşkarlanması;

-İran qanunvericiliyində ailə və cəmiyyət məsələlərinin təhlili;

-müasir İranda ailə modelləri: tipləri və növlərinin təsviri;

-«Müasir İran ailəsinin sosial problemləri» mövzusunda sosioloji sorğu keçirmək.

-İranda ailə münasibətlərində kişi və qadının rolunun araşdırılması;

-ailənin statusunda və sosiomədəni rollarında baş verən dəyişkliklər dinamikasında transformasiya xüsusiyyətlərini tədqiq

---

[8] www.Tebyan .net

[9] زنجاني زاده ، هما – مشاركت سياسي زنان و عوامل اجتماعي موثر بر آن ، چالشهاي نوين – فصلنامه علوم اجتماعي – شماره 19، 1381

etmək;

-ailənin sosial rollarında keyfiyyətcə yeni məzmun daşıyan forma və təzahürləri aşkara çıxarmaq;

-qloballaşma dövründə İran qadınının sosiomədəni statusundakı dəyişklikləri şərtləndirən başlıca amilləri müəyyənləşdirmək;

-sosioloji materiallar əsasında İranda ailədaxili zorakılıq hallarının sosial problem kimi təhlili.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Dissertasiya işində mənbə kimi tanınmış filosofların, sosioloqların və ictimai fikir nümayəndələrinin əsərlərindən və fikirlərindən istifadə olunur. Dissertasiyada məntiqi-tarixilik, sistemli yanaşma, konkretlik və səbəbiyyət metodlarına üstünlük verilmişdir. Sosioloji sorğunun keçirilməsində və nəticələrin işlənilməsində rəsmi statistik məlumatların təhlili, müşahidə, sosioloji eksperiment və başqa metodlardan istifadə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi onun məqsəd və vəzifələrindən irəli gəlir və konkret olaraq aşağıdakılardan ibarətdir:

-İşdə ilk dəfə İran ailəsinin formalaşması sosial-mədəni və fəlsəfi aspektdə öyrənilmiş;

- İranda mədəni, iqtisadi və sosial şəraiti nəzərə almaqla, tarixi inkişaf prosesində ailənin sosiomədəni statusunun və bu aspektdə rollarının transformasiya özəllikləri açıqlanmış;

-İran ailəsində ailədaxili zorakılıq halları sosial problem kimi keçirilmiş sosioloji sorğu materialları əsasında öyrənilmiş;

-tədqiqatın gedişində qadın və kişilərin sosiomədəni rollarında keyfiyyətcə yeni formalar və təzahürləri üzə çıxarılmış;

-müasir İran cəmiyyətində ilk dəfə qloballaşma prosesi ailənin yeni statusunun formalaşmasına təsiri araşdırılmışdır.

**Dissertasiyanın empirik bazası.** Işin emperik bazasını “Müasir İranda ailə problemləri” mövzusunda keçirilmiş sosioloji sorğunun nəticələri təşkil edir. Bu məqsədlə Tehranda, həmçinin İranın Miyanə şəhərinin yeddi rayonunda aparılan anket sorğularının nəticələri tədqiq edilmişdir.

**Dissertasiyanın elmi-praktik əhəmiyyəti.** Disssertasiyanın elmi-praktiki əhəmiyyəti onun elmi yeniliyi ilə six bağlıdır. Tədqiqatın elmi nəticələri İranda ailənin tarixi keçmişi və milli-adət ənənələri ilə müqayisədə müasir sosial problemlərin cəmiyyətin diqqətinə çatdırılması istiqamətində elmi-praktik əhəmiyyət kəsb edir. İranda

ailənin müasir inkişaf istiqamətlərinin öyrənilməsində bu dissertasiyanın müdəalarından istifadə edilməsi əhəmiyyətli rol oynaya bilər.

Disssertasiyada İran ailəsinin keçmişi və müasirliyi müqayisəli fikirləri göstərməklə, möhkəm ailənin cəmiyyət üçün çox əhəmiyyətli olduğu və buna nail olunma yolları göstərilib.

Cəmiyyətin və dövlətin təməl daşı sayilan ailəyə həsr olunmuş bu elmi tədqiqat işinin universitetlərdə, məktəblərdə, bu sahədə fəaliyyət göstərən ictimai təşkilatlarda və dövlət müəssisələrində əhəmiyyətli mənbə kimi istifadə oluna bilər.

Həmçinin disssertasiya materiallarından elmi məqsədlərlə ailələrin sosial məsələləri ilə məşğul olan ictimai təşkilatlar, tədqiqatçılar da bəhrələnə bilərlər.

**Dissertasiya işinin aprobasiyası.** Disssertasiya AMEA Fəlsəfə, Sosiologiya və Hüqüq İnstitutunun "Müasir fəlsəfə problemləri"şöbəsində müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Disssertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmüş 12 məqalə və tezislərində, elmi seminar və konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, altı yarımfəsili əhatə edən iki fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri , işlənmə dərəcəsi, nəzəri və metodoloji mənbələri, elmi yeniliyi, elmi praktik əhəmiyyəti, informasiya və empirik bazası şərh olunur.

Dissertasiyanın « **İranda ailənin formalaşması tarixi və onun sosial-mədəni xüsusiyyətləri** » adlı birinci fəsili 3 yarımfəsildən ibarətdir. I fəslin birinci yarımfəsli «İranda ailə münasibətləri : tarixi və sosiomədəni baxışlar » adlanır.

Bu yarımfəsildə qədim dövrlərdən etibarən İranda ailə formalaşmasına təsir edən amillər, ayrı- ayrı vaxtlarda meydana çıxan bəzi ənənələrin ailəyə təsiri, belə ailələrdə qadın hüquqlarının məhdudluğu, mövcud olan çoxarvadlılığın neqativ cəhətləri , evlənmə, ailə qurmanın növlərini izah edilmişdir. İran ailələri hələ qədim dövrun ilk ictimai – iqtisadi formasiya olan ibtidai icma dövründə yaranmağa

başlamışdır. Cəmiyyətin özəyi olan ailə, ibtidai icma quruluşu dövrundə sinif, millət və dövlətdən əvvəl yaranan ən qədim sosial institudur. Onun yaranmasına bütün sosial-iqtisadi və mədəni proseslər, gündəlik həyat tərzi, ətraf mühitin faktorları təsir göstərmişdir. İctimai həyatın dəyişiklik, nailiyyət, inkişaf və çətinliklərinə həssas olan ailə qədər başqa bir sosial institut yoxdur .

İslamdan öncə İran ailələrinin ən sadə nümunəsi ilk dəfə həmin tarixdən min il sonra miladi tarixi ilə altıncı əsrdə Sasanilərin hakimiyyətinin ən yüksək vaxtlarında meydana çıxdı. Həqiqətdə həmin dövrdə İran ailəsində çox böyük irəliləyişlər baş verdi. Bu dəyişiklik isə çox böyük miqyasda sosial, siyasi və iqtisadi inkişafla bağlı idi. Fərdin azadlığının qüvvətləndiyi həmin dövrdə artıq atanın hökmranlığı azalmağa başlayır və atanın tabeliyi altında olanların hökmranlığı isə güclənməyə başlayırdı. Ailə ocağında qadın ön plana keçməyə başlayır, uşaqlar isə yavaş- yavaş atanın zülmündən azad olurdular. Hər şeydən öncə bu dövrdə ailə yeni imtiyazları baxımından zərdüştlük dininə borclu idi. Qərbin sənaye mədəniyyəti və dövlətin müdaxiləsi, urbanizasiyanın genişlənməsi, cəmiyyətin sosial-iqtisadi dəyişikliklərlə müşahidə olunan nəticələri ailənin qeyd etdiyimiz formasının əsaslı dəyişikliklərə məruz qalmasına səbəb oldu.

Dissertasiyanın **«Ailə problemlərinin mədəni və mənəvi abidələrdə təzahürü»** adlanan 2-ci yarımfəslində ailə münasibətləri və hüquqlarını Zərdüştlük, Xristan, Yəhudi və İslam dinlərində, həmçinin bədii ədəbiyyatda göstərir. Deylənlərdən belə neticəyə gəlmək olar ki, bütün dinlərdə ailəyə əhəmiyyət verilir və evlənmək müqəddəs bir iş hesab edilir. Necə ki, Vill Durant ailənin vəziyyəti barəsində yazır: "Ailədə atanın üstün mövqedə olduğu ibrani bir ailə, böyük siyasi və iqtisadi qurum idi"[10].

İslam dinində cəmiyyətin əsasını ailə təşkil edir və ailəyə çöx böyük əhəmiyyət verilərək bu sosial institut rahatlıq yeri adlandırılmışdır. İslamda ailəyə verilən əhəmiyyətin dəlilləri bunlardır: nəsil artırma; müstəqillik əldə etmək məsələsi; günahdan çəkinmək və iffəti qorumaq; sosial rahatçılığın yaranması[11].

Birinci fəslin 3-cü yarımfəsli isə **« İran qanunvericiliyində ailə və cəmiyyət məsələlərinin tənzimlənməsi məsələsi»** adlanır. Bu yarımfəsildə İİR konstitusiyasında cəmiyyətdə baş verən nikah və

[10] ويل ، دورانت ، خلاصه داستان تمدن ،تاريخ انتشار، ، مترجم باقر پرهام ،انتشارات ،امير كبير1350
[11] مظاهري ، علي اكبر ، خانواده ايراني در روزگار پيش از اسلام، قم : 1357

boşanma halları və onların növləri; İran qanunvericiliyində yetkinlik yaşına çatmadan evlənmək vəziyyəti; İrs və sair məsələləri, həmçinin onları İran islam inqilabından öncəki durumu ilə müqyisə etməyə səy göstərilmişdir.

İran İslam Respublikasının konstitusiyasında ailə insanın və cəmiyyətin inkişafının əsas amili kimi təsbit olunmüşdur. Ailənin mühafizəsi konstitusiyanın 21-ci maddəsində əks olunmuşdur. Beləliklə, "hökumət bütün səviyyələrdə hər bir ailənin hüququnu şəriət baxımından qorumağı öz öhdaəsinə götürüb, həmçinin, ailədə olan münaqişə və s. problemlərə baxılması üçün səlahiyyətli ailə məhkəmələrinin olmasını zəruri hesab edib"[12].

Müəllifin fikrincə, ailədə olan münaqişə, problem, qarşıdurmalar və s. Problemlərə baxılması üçün səlahiyyətli ailə məhkəmələrinin olması zəruridir. Bu məhkəmələrdə hakimlər xüsusi dəqiqlik və həssaslıqla ailə problemlərinə diqqətlə yanaşmalı və ailənin təməlinin möhkəmlənməsi üçün zəruri köməklik göstərməlidirlər.

Elmi işdə qeyd olunur ki, İran qanunvericiliyi uşaqların saxlanması, böyüdülməsi və onlara qulluq sahəsində kişi və qadının qarşısına konkert vəzifələr qoyur. Uşağa qulluq dedikdə, uşağın psixi və fiziki sağlamlığı nəzərdə tutulur ki, buraya uşaqların qidalanması, tərbiyəsi , onların təmiz saxlanması və s. məsələlər daxildir.

İran qanunvericiliyinə görə uşaqları saxlamaq valideynlərin həm haqqı və həm də vəzifəsidir. Lakin, fikir ayrılığı yarandıqda, mülkiyyət qanununa görə, uşağı iki yaşına qədər saxlamaq üçün anaya üstünlük verilir. Bu müddətdən sonra uşaq saxlamaq ataya keçir. Belə ki, qızlar 7 yaşına və oğlanlar 2 yaşına qədər ananın himayəsində olurlar. Ondan sonra saxlamaq hüququ ataya verilir. Nikahın əsas sütunları kişi və qadındır. Burada qan qohumluqu qohumluğun əsası sayılır. İİR-nın mülki qanunun 1041-ci maddəsində göstərilir ki, cinsi yetkinlik yaşına çatmazdan əvvəl ki nikah qadağan hesab edilir".İİR-nın 1974-cü ildə ailəni himayə etmək qanununa qədər İİR-nın mülkiyyət qanunu 15 yaşı tamam olmamış qızların və 18 yaşı tamam olmamış oğlanların evlənməsini qadğan etmişdi.

Nikahın iki növü vardır: 1) Daimi nikah. 2) Müvəqqəti nikah. Bu baxımdan daimi nikah, müddəti olmayan və əbədi nikah hesab edilir. Burada kişi və qadın həyatlarının sonuna qədər birlikdə yaşamağa söz verirlər. Müvəqqəti nikah isə müəyyən müddət üçün kəsilir və müddət

[12] کاتوزیان ، ناصر، دوره مقدماتی حقوق مدنی خانواده ، تهران : میزان، 1382

başa çatandan sonra nikah özbaşına pozulur. Buna görə də müvəqqəti nikah kəsildiyi müddətə qədər etibarlı və dəqiqdir. İran cəmiyyətində nikahların əksəriyyəti daimidir.

Boşanma elə bir müqavilədir ki, ona asasən kişi məhkəmənin qərarı ilə həyat yoldaşını buraxır. İslam hüquqşünasları böşanmanın izahında deyirlər ki, boşanma nikahın ləğv edilməsindən ibarət xüsusi sözdür. Ailənin dağılması prosesi təkcə valideynlərə deyil, eyni zamanda uşaqlarda da ciddi təsir göstərir. Bu məsələ, özünü onların təlim və tərbiyəsində də büruzə verir. Məlumdur ki, belə valideynlərin uşaqları tez dərs buraxır, intizamsızlıq edir, ictimai işlərindən yayınır, yoldaşları ilə kobud davranmağa başlayırlar. Bütün bunlar boşanmadan sonra ailədaxili münasibətlərdə yaranan dəyişikliklərlə bağlıdır. Bəzi kişilər özləri üçün yeni ailə qurandan sonra uşaqların tərbiyəsindən yayınırlar. Belə validEyinlərin uşaqları ağır psixoloji zərbəyə məruz qalır və çətin vəziyyətə düşürlər. Lakin bunu da qeyd edək ki, İranda boşanma dörd növdən ibarətdir: rici talaq, bain talaq,  xul və mubarat talaq.

Dissertasiyanın 2-ci fəsli isə « **Müasir İranda ailə: reallıqlar və sosial inkişaf** » adlanır. Bu fəslin birinci yarımfəli « Müasir İranda ailə modelləri: tipləri və növləri» adlanır. Müasir İranda ailə növləri müxtəlifdir. Müasir İranda  ailə münasibətlərinin müxtəlif olması bu və ya digər cəmiyyətin inkişaf dərəcəsi, ictimai münasibətlərin xarakteri ilə izah olunur. Müasir İranda ailənin aşağıdakı növləri mövcuddur: ekstensiv (genişlənən)ailə, nuklear (sadə) ailə, qadın merkezli ailə, mürakkəb ailə, fərdi , boşluq ailə və s. Nəsli kişi və qadın xətti ilə təyin edilən fərdi ailə növü bu gün İranda ən geniş yaylan ailə formasıdır.

XX əsrdə İran ailəsində baş verən sosial-mədəni dəyişikliklər tədricən, ancaq davamlı xarakter daşımışdır. İranda uzun müddət bir ailə tipi mövcud olmuşdur ki, sosioloqlar bunu ekstensiv (genişlənən)ailə tipinə aid etmişlər[13].

Müasir cəmiyyətdə nuklear ailə əsas ailə tipidir. Nuklear ailə sadə ailədir. Mürakkəb ailədən fərqli olaraq nuklear ailə iki nəsildən –ata - ana və uşağlardan ibarətdir. Nuklear və genişlənən ailə barədə dissertasiyada ətraflı məlumat verilmişdir. Bütün deyilənlərdən bu nəticəyə gəlmək olar ki, ailə bir mürəkkəb sosial sistem kimi müntəzəm olaraq formalaşır.Cəmiyyətin inkişaf etməsi və dəyərlərin yeniləşməsi, burada baş verən sosial, iqtisadi, mənəvi, siyasi, hadisələr

[13] بهنام ، جمشيد: ساختهاي خانواده و خويشاوندي در ايران، تهران: حبيبي، 350

və proseslər ailənin strukturuna , ailə üzvlərinin qarşılıqlı münasibətlərinə, ailənin davamlılığına birbaşa təsir göstərir.

Dissertasiyanın 2-ci fəslinin 2-ci yarımfəsli isə **«Ailədaxili zorakılıq sosial problem kimi»** adlanır.

Bu yarımfəsil müəllifin keçirdiyi sorğu barəsindədir. Dissertasiyada sənədlərin və statistik məlumatların analizi, nəzəri müşahidə və başqa sosioloji metodlardan istifadə edilmişdir.

Ailənin qarşısına çıxan ən mühum problemlərdən biri olan ailədə baş verən zorakılıqlardır . Ailədə zorakılıqlar yeni əsrdəki son illərdə bir çox alimlərin tədqiqat obyekti olmuşdur.

Tədqiqatlardan belə aydın olur ki, müasir dövrdə ailə zorakılıqlarının meydana gəlməsində fərdi sosial-psixoloji amillərin və ictimai şəraitin təsirləri olmuşdur. Belə görünür ki, ailədə zorakılığın yaranmasında ictimai formaların təsiri fərdi amillərdən daha çoxdur. İranda qadın əleyhinə zorakılıq məsələsi ən böyük və önəmli araşdırmalardan biri hesab edilir. Bu məsələ milli səviyyədə Məhəmməd Xatəminin prezidentliyinin son dövrlərində ölkənin daxili işlər nazirliyinin sosial müdafiə şöbəsi və respublika rəyasətinin qadın işləri üzrə fəallıq mərkəzi tərəfindən ölkənin 28 əyalət mərkəzində icra edilməyə başlandı.

Tədqiqat prosesində «**Ailədaxili zorakılıq sosial problem kimi**» mövzusunda sorğu anketi tərtib olunmuş, Miyana və onun yeddi rayonunda yaşayan qadınlar arasında sorğu keçirilmiş və nəticələr təhlil edilmişdir.

Statistika mərkəzinin əhali sayına görə həmin rayonun əhalisinin 46,11 %-i şəhərdə və 53,88 %-i isə kənd yerlərində məskunlaşmışlar. Ona görə də sorğuda iştirak edən 385 respondentin 177 nəfəri şəhərdə və 208 nəfəri isə kənd yerlərində yaşayan qadınlar arasından seçilmişdir. Şəhər yerlərində nümunələrin seçilməsi üçün səhiyyə mərkəzinin təsnifatından istifadə edilmişdir. Bu təsnifata görə əhali 1 № səhiyyə mərkəzi, 2 № səhiyyə mərkəzi və 3 № səhiyyə mərkəzinə aid olmaqla qeydə alınmışdır.

Sorğuda iştirak edənlərin 30,8% -i 13-14 yaş, 36 %-i 25-30,33,2% -i 31-50 yaşa malikdilər. Respondentlərin 45,5 % -i sərbəst işlə və 31% -i dövlət işi ilə və 20,5 % -i isə evdar qadınlardır. Respondentlərin 21%-i savadsız, 42%-i birincı məktəbqədər, 18,7 % - i natamam ali, 13,7 % - i orta təhsilı, 1 %-i isə bakalavar olmuşlar. Əldə edilən nəticələr onu göstərir ki, respondentlərin 42%-i ibtidai təhsil sənədinə və azı bakalavar dərəcəsinə malikdirlər. Respondentlərin 2,3%-i

uşaqsız, 18,1% -i bir uşaq , 16,1 %-i iki uşaq, 11,7%-i üç uşaq , 50%-i dörd uşaq və 0,5 %-i 5 uşaqa malikdilər. Zorakılığı qəbul etməyi kişilərin vasitəsi ilə: sosial sorğuya görə respondentlərin arasında 10,4 % -i zorakılığı qəbul etməyi onlarda az, 39,1 %-i orta və 50,5 %-i çox olmuşdur. Sosial sorğuya görə ümumiyyətlə respondentlərin 25,4 %-i zorakılığın öyrənməsı onların arasında az, 53,9%-i orta və 50, 5%-i çox olmuşdur.

Zorakılığın müşahidəsı ata evində , respondentlərin 19,2 %-i az , 54,4%-i orta və 25,1 %-i çox müşahidə ediblər . Həmçinin sualların 1,3 %-i cavabsızdır.

Uşağlıqda kişinin zorakılıq təcrübəsı sualına, kişilərin 21,2 %-i uşaqlıqda zorakılığı az , 56%-i orta və 21,8 -i çox təcrübə ediblər.

Ailənin ictimai və iqtisadi statusu-sualından belə nəticə əldə edilib, respondentlərin 27,5 %-i aşaqı, 51,5%-i orta və 18,1 %-i yüksək səviyyədə olmuşdur.

Fiziki zorakılıq göstəricisi: ümumiyyətlə respondentlərin 49%-ində fiziki zorakılıq az, 37%-ində orta və 54,7% -ində çox olmuşdur. 1,8 5%-i cavabsızdır.

Psixi zorakılıq səviyyəsi: respondentlərin 41,2%-i psixoloji zorakılıq az, 40,7%-ində orta və 18,1% -ində çox olmuşdur.

Məişət zorakılığı: Respondentlərin 48,9%-i məişət zorakılığını az, 22,5 %-i orta və 11,9 %-i çox təcrübə ediblər. 18,4 % cavabsızdır.

Aparılan sorğudan belə nəticəyə gəlmək olar ki, qadınlar əleyhinə zorakılıq üzərində təsir göstərən dəyişiklikləri kateqoriya sırası ilə aşağldakı formada təsnif etmək olar: ailədə atanın hakim olması, zorakılğın öyrənilməsi, zorakılığın qəbul edilməsi, ailə həyatı qurmaq yaşı, zorakılıq təcrübəsində əhəmiyyətli dərəcədə məntiqi əlaqə vardır.

Dissertasiyanın 2-ci fəslinin 3-cü yarmfəsili « **Müasir İranda ailə münasibətlərində kişi və qadının rolu»** adlanır. Ailə münasibətlərinin hər bir konkert mərhələsinin inkişaf tendensiyası ictimai həyatın real proseslərində öz əksini tapir. Ailə münasibətləri sosial qurumların təsiri altında daim dəyişilmək üzrə qarşı- qarşıyadır. Yaşam şəraitinin dəyişilməsi və onun arxasınca yeni tələbatların aşkara çıxması ilə həmişə rollar dəyişilməkdədir. Belə ki, günü- gündən ənənəvi rolların etibarı azalmağa başlamış və onların dəyişilməsinə hazırlıqlar gedir. Cəmiyyətin struktur dəyişiklikləri ilə birlikdə evdar xanım öz ənənəvi məsuliyyətləri ilə yanaşı əvvəlkindən də çox evdən xaricdə işləməyə məcbur olmuşdur. Eyni halda qadının cəmiyyətdə işləməsi onun istismar edilməsi və qul olması mənasını daşımır. Çünki,

ictimai fəalliyyəti müsbət, maddi və ənənəvi təsirləri çox vaxt qadının sosial və iqtisadi cəhətdən xeyrinə olmaqla yanaşı, onun övladları və həyat yoldaşına da aidiyyati olur. Bu dəyişikliyin əsas sosial təsiri qadınların rolunda ənənəvi normaların dəyişilməsi və ailə daxilində işlərin bölgüsüdür. Ailə daxili münasibət və əlaqələrin tədqiqi göstərir ki, bir çox ənənəvi norma və dəyərlərin sıradan çıxması ilə qadının sosial həyatda oynadığı rolda da dəyişikliklər meydana gəlmişdir. Bu dəyişikliklərin nəticəsində qadının sosial fəaliyyətlərinin inkişafı sahəsində yeni dəyişikliklər meydana çıxmışdır. Qadınların evdən kənar mühitdə fəaliyyəti onların sosial şəxsiyyətinə misilsiz surətdə təsir göstərmişdir. Bu məsələ öz növbəsində cəmiyyətin qadınlara qarşı etimadının artmasına səbəb olmuşdur.

İran cəmiyyəti daim mədəni, siyasi, iqtisadi və sosial dəyişikliklərin şahidi olmuşdur. Belə ki, bu dəyişikliklər qadınların ailə və sosial mövqeyinin rolunun dəyişilməsinə, xüsusi ilə də şəhər cəmiyyətlərində dəyişikliyə səbəb olmuşdur. Bununla belə bu dəyişikliklər hələ də ailədə kişi və qadının bərabər olmayan mövqeyi qalmaqdadır[14].

Bu yarımfəsildə ər ilə qadın arasında olan ailə münasibətlərinin necəliyi və onların ev işlərində fəallıq forması göstərilmişdir. Bu hissədə ev işlərində kişilərin iştirakına təsir edən ailənin sosial- iqtisadi statusu, gəliri, peşə, təhsil və evlilik həyatından razılıq kimi amillərin təsiri araşdırılıbdır. Həmçinin əldə edilən nəticələrin faizlari də ümumiləşdirilərək kodlaşdırılmışdır. Bu nəticələr onu deməyə əsas verir ki, müasir İran cəmiyyətində ailənin rol dəyişmələrində adət-ənənələrlə bərabər sosial həyat tərzinin böyük təsirləri olmuşdur. Məhz sosial amillərin günbəgün artan müxtəlifliyi içərisində insan amili başlıca problem olmuşdur. Ona görə də ailədən başlanan bu prosesin ideya köklərini cəmiyyətin özünəməxsus cəhətlərində axtarmaq gərəklidir. Amerika sosioloqları Bilad və Volfun dediyinə görə, "yaş, evlilik müddətinin uzun və ya qısa olması, ailədə sosial-psixologi vəziyyəti və fəaliyyətinə mühüm təsir göstərir". Araşdırmalara görə kişilər ilkin evlilik vaxtı (təqribən ilk 5-7 il) özlərinin ən yüksək hökmranlıq dövrünü keçirirlər. Qadının dominantlığı isə vaxt keçdikcə güclənməyə başlayır. Bu nəzəriyyəyə əsasən fərdlərin norma, dəyər, əqidə və baxışları ev münasibətlərinin həllində təyinedici rola malikdir.

[14] جاراللهی ، عذرا ، تاریخچه اشتغال زنان درایران ، فصلنا مه علوم اجتماعی ، دوره اول زمستان 72- 71 ، شماره 34 ، انتشا رات دانشگاه علامه طباطبایی .

Bu məsələ ilə əlaqədar tədqiqat zamanı «Ev işlərində kişilərin fəallığı » mövzusunda sorğu anketi tərtib olunmuş, bu araşdırmanın respondentləri 25- 50 yaş arası Tehranda yaşayan evli və uşaq sahibi olan qadın və kişilərdən ibarətədir.

Yuxarıda qeyd etdiyimiz faktların seçilmə səbəbi aşağıdakı kimidir: 25 yaşdan yuxarı kişi və qadınların seçilmə səbəbi buna görədir ki, artıq bu yaşdan yuxarı insanlar şəxsiyyət baxımından bitkin insanlar olurlar. Yuxarı yaş həddinin 50 götürlüməsinin səbəbi isə artıq bu tip ailələrdə ailə münasibətləri oturuşmuş vəziyyətdə, sabit olaraq qalır və hər hansı bir dəyişikliyin baş vermə ehtimalı zəif olur.

Araşdırmanın məhdudiyyətlərini, anketin icrası, habelə digər bir sıra çətinlikləri nəzərə alaraq Tehran şəhəri səviyyəsində 200 respondent arasında sorğu keçirilmişdir ki, onların 100 nəfəri kişi və 100 nəfəri isə qadın olmuşdur.

Bu tədqiqət işi xarici və daxili ədəbiyyatların köməyi ilə ev işlərinin strukturunda baş verən dəyişikliklər və həmçinin ev işlərində kişilərin fəallığı barəsində əsas və qeyri əsas amilləri göstərilib. Tədqiqat işindən aşağıdakı elmi nəticələr əldə edilmişdir:

1) Ailədə kişinin fəallıq səviyyəsi ilə qadının ictimai fəalliyyəti arasında məntiqi əlaqə mövcud deyile.
2) Ev işlərində kişilərin fəallıq səviyyəsi ilə qadınların gəlirləri arasında zəif əlaqə mövcuddur.
3) Ev işlərində kişilərin fəallıq səviyyəsi ilə onların təhsili arasında məntiqi əlaqə mövcuddur.
4) Ev işlərində kişilərin fəallıq səviyyəsi ilə müştərək həyatdan razılıq səviyyəsi arasında məntiqi əlaqə mövcuddur.
5) Ev işlərində kişilərin fəallıq səviyyəsi ilə ailənin sosial–iqtisadi mövqeyi arasında məntiqi əlaqə mövcuddur.
6) Ev işlərində kişilərin fəallıq səviyyəsi ilə ailənin sosial münasibətləri arasında əlaqə mövcuddur.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqata yekun vurulur, tədqiqatın əsas müddəaları ümumiləşdirilir, həmçinin təklif və tövsiyyələr irəli sürülür.

Dissertasiyanın əsas məzmunu və nəticələri aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:

1. Ailədə baş veran zorakılıqlar və şəxsiyyətin formalaşmasına təsir edən amillər // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Ali məktəblər- arası elmi məqalələr məcmuəsi, Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti.

Bakı: 2009, 6-cu buraxılış,s.226-231

2. Aildə qadın və kişinin vəzifələrini sosial- psixoloji təhlili, //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Ali məktəblərarası elmi məqalələr məcmuəsi, Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti, Bakı: 2010 , 5-cu buraxılış, s. 203-206

3. İran islam respublikasında qadınların nikah və boşanma hüququ haqqında, //Mədəniyyət dünyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti İSSN: 2221-7584, Bakı:2011,s.105-108

4. İran İslam Respublikasının qanunvericiliyində ailə hüquq aspekti,// Dirçəliş XXI əsr jurnalı ,Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu , Bakı : 2011.153-154 -cu buraxılış ,345-351

5. İranda qadınların sosial və siyasi fəallığı haqqında, //AMEA Fəlsəfə, Sosiologya və Hüquq institutunun"Elmi əsərlər"beynəlxalq elmi-nəzəri jurnalı,2012-ci ilin 1-ci(18)sayı, s.245-350

6. Qadınların sosial və mədəni məsələlərinə dair , //AMEA Fəlsəfə, siyasi- hüquqi tədqiqatlar institutu, Müasir cəmiyyətin aktual problemləri, Gənc tədqiqatçılarin 1-ci beynalxalq simpoziumunun materialları, Bakı: Mütərcim, 2007,s.30-34

7. Investigating domestic violence as a social issue(case study:Mianeh County) Journal of Basic and Applied Scientific Research, Misir, 2011.(ISI)

8. Social Study of Family Roles:Men's Changing Contribution in Housework.Life Science Journal 2012;9(x), (ISI),ISSN:1097-8135

9. Kişinin ev işlərində iştirakı və bu məsələnin qadınların ictimai fəaliyyətində təsiri, // Fekre rooz jurnal of İslamic Repoblic of İran,Tehran:2008.11-cu buraxılış.

10. Qadınların nikah və boşanma hüququ, // Azərbaycan Respoblikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVI Respublika Elmi konfransının materialları, Bakı:2011, s.303-306

11. Ailə münasibətlərinin inkişafı və onun cəmiyyət inteqrasiyasında təsiri(əməkdaşlıqlar-müqavimətlər), //Azərbaycan Respoblikası Təhsil Nazirliyi Azərbaycan universiteti, Beynəlxalq elmi konfrans, Bakı:2012,s254-256

12. İran qanunvericiliyində ailə və cəmiyyət məsələləri, //Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,

Azərbaycanda gender problemləri, Bakı:2012, s.134-144

13. İran İslam Respoblikasında qadınların fəallığı, // Azərbaycanda Gender problemləri: Mövcud vəziyyət və əsas istiqamətlərdə inkişaf mövzusunda II Respublika konfransının materialları «AVROPA» nəşriyyatı. Bakı:2013, s 219-226

Несрин Эсмаилпур Mианджи Джавад

## Социальные проблемы современной иранской семьи


### Резюме

Диссертационная работа состоит из введения, двух глав, состоящих из 6-и полуглав, заключения и списка использованной литературы.

В первой главе диссертации, которая называется "История формирования семьи в Иране и ее социально-культурные особенности", рассмотрены факторы, влияющие на формирование семьи в Иране с древних времен, влияние некоторых традиций, возникших в различных периодах, также описаны семейные отношения и права в различных религиях. В этой главе также рассмотрены виды брак и разводы в Иранской Исламской Республике, брак до достижения совершеннолетия в Иранском законодательстве, вопросы наследства и пр. вопросы.

Вторая глава диссертационной работы называется "Семья в современном Иране: реальности и социальное развитие". Здесь рассматриваются различные виды семьи в Иране . В этой полуглаве нашли свое отражение выводы, полученные в итоге конкретных социалогических исследований, связанных данной темой. Например, в городе Мияне и в семи приближенных к нему районах был проведен анкетный опрос между 385 женщинами на тему "Внутрисемейная жестокость как социальная проблема" и выводы проанализированы в социально-философском аспекте. В третьей полуглаве второй главы рассмотрено социальное состояние семейных отношений между мужем и женой и их социальная активность в домашних работах. В научной работе для обоснования теоретических гипотез с тактическими материалами в Тегеране между 200 человек был проведен анкетный опрос. В этой части были рассмотрены такие факторы, как социально-экономический статус, прибыль, профессия, образование и довольство от семейной жизни, которые способствуют участию мужчин в домашних делах.

Одна из важных аспектов диссертационной работы получение конкретных итогов в итоге проведенных анализов. Вообщем, в научной работе социальные проблемы Иранской семьи рассмотрены в социально-философском аспекте.


Esmaeilpour Mianji N. J.

**Study of Social problems in modern Iranian family**

SUMMARY

The dissertation consists of introduction, two chapters, six paragraphs, conclusion and the list of used literature.

The first chapter entitled historic transformation and formation of Iranian families and its social and cultural characteristics. In this chapter identifying the effective factors to social and historical transformation in ancient Iran, examine of rights and responsibilities of family members in various religions and also perspective of constitution toward family has been studied. Topics covered in this paragraph include: marriage and types of marriage, divorce and types of divorce, Custody, Legacy.

The second chapter focuses on facts and Social Development Family in contemporary Iran. The first paragraph of this chapter is to examine new forms of family. In the second section of this chapter factors affecting domestic violence against women in the East Azerbaijan province (case study: Mianeh city) and the results of sociological studies and analysis has been investigated. A questionnaire was formulated and these questionnaires were filled by 385 women. The third section of the second chapter, how the family relationship between husband and women and their participation in housework is discussed.This research started by use of survey method and questionnaire tool in 22 districts of Tehran city by selecting a sample of 200 married men and women with children. Sampling method was based on stratified sampling. On the basis of the results obtained from this research, one can find out that by stratifying social strata with education level criterion, the educated stratum has the most cooperation and contribution in housework and by increasing satisfaction with common life, cooperation and contribution in housework will increase. By studying on the obtained samples, effect of factors relating to family social relations network and socioeconomic base are visible in extent to which men contribute and cooperate.

One of the most important aspects of this research is to achieve concrete results in the analysis. Overall, In this research the social problems of Iranian families has been studied from the point of view social and philosophical.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

*На правах рукописи*

**Насрин Эсмаилпур Mианджи Джавад кызы**

# Социальные проблемы современной иранской семьи

Специальность: 7207.01 Социальная философия

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по философии

**БАКУ-2013**

**AMEA-nın mətbəəsində çap olunmuşdur**
**Tiraj-100**